BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Sosial-siyasi elmlər seriyası 2012

UOT 338 / 338.1 / 339.727

# BİRBAŞA XARİCİ İNVESTİSİYALARIN MAHİYYƏTİ VƏ ONLARIN AZƏRBAYCAN İQTİSADİYYATINA CƏLB EDİLMƏSİ

**L.V.ABIŞLI**
***Bakı Dövlət Universiteti***
***abishli@gmail.com***

*Məqalədə xarici birbaşa investisiyaların nəzəri-metodoloji xüsusiyyətləri, inkişaf mərhələləri qeyd edilmiş, xarici investisiyaların müxtəlif mənbələrdə verilmiş tərifləri müqayisəli şəkildə göstərilmişdir. Xarici investisiyaların xarakterik xüsusiyyətləri qeyd edilmiş, onların dünya və Azərbaycan üzrə inkişaf dinamikası təhlil edilmişdir.*

**Açar sözlər:** xarici investisiyalar, iqtisadi artım, dinamik inkişaf, Azərbaycan iqtisadiyyatı, kapital axını

Azərbaycan iqtisadiyyatına qoyulan birbaşa xarici investiyalardan danışmazdan əvvəl xarici birbaşa investisiyalar anlayışına aydınlıq gətirmək lazımdır. Belə ki, Beynəlxalq Valyuta Fondunun metodikasına görə birbaşa xarici investisiyalar elə xarici investisiyalar hesab edilir ki, həmin investisiyaların həcmi, daha doğrusu, ümumi investisiya kütləsində xüsusi çəkisi investora iştirak etdiyi investisiya prosesinin obyektinin fəaliyyətində mühüm qərarların qəbulunda iştirakına imkan verən səviyyədə olsun. Lakin, xarici investisiyalar isə sahibkarlıq gəliri və ya faiz əldə etmək üçün bir ölkədən çıxardılaraq digər ölkəyə yatırılan kapital vəsaitləri kimi başa düşülür [4, 101].

Xarici birbaşa investisiyaları xarakterizə edən ən məhşur tərif Ümumdünya Ticarət Təşkilatının (ÜTT) verdiyi tərifdir: birbaşa xarici investisiyalar o tip investisiyalardır ki, investor olan şəxs bir ölkənin rezidenti olmaqla öz aktivlərini başqa ölkədə o şərtlə yerləşdirir ki, həmin aktivlər üzərində tam nəzarət hüququnu özündə saxlamış olsun [9]. Bununla belə, birbaşa xarici investisiyaların UNİCDAT-ın təsnifatındakı yeri belədir: birbaşa xarici investisiyalar elə xarici yatırımlardır ki, onun vasitəsi ilə bir ölkənin subyektləri digər ölkə ilə dərin əməkdaşlıq fəaliyyətinə girərək xarici ölkədəki obyektdə (müəssisədə) təsərrüfatın təşkilinə nəzarət edə bilirlər. Bununla belə aşağıdakı şərtlər də ödənilməlidir:

- xarici investor müəssisənin ümumi elan edilmiş səhmlərinin dəyərinin 10-20%-i məbləğində həmin müəssisənin səhmlərinə sahib olmalıdır;

- müəssisənin gəlirlərinin bölgüsündən sonra öz payına uyğun həmin müəssisəyə reinvestisiya etməlidir;

- əgər xarici investor filial yaratmaqla investisiya həyata keçiribsə, onda "ana" firma filiala bərabər hüquqlu maliyyə rejimi tətbiq etməlidir (xüsusən borc və kredit sahəsində) [4, 102-103].

Yuxarıda qeyd etdiklərimizi nəzərə alaraq və bir qədər ümumiləşdirmə aparaq birbaşa xarici investisiyaların reallaşmasının aşağıdakı formalarda həyata keçirildiyini qeyd etmək olar:

- resipient ölkədə yerləşən şirkətin bir hissəsini əldə etmək yolu ilə;
- kapitalın "ana" şirkətdən resipient ölkədə yerləşən törəmə şirkətə ötürülməsi yolu ilə;
- törəmə şirkətlərin gəlirlərinin reinvestisiya edilməsi yolu ilə;
- "ana" şirkətlərin resipient ölkələrdə yerləşən törəmə şirkətlərinə uzun müddətli və qısa müddətli borclar verməsi yolu ilə və s.

Praktikada birbaşa xarici investisiyaların digər reallaşma formaları da rast gəlinir, lakin şəxsin ayrıca şəkildə digər ölkənin şirkətini alması və ya digər hərəkətləri kimi rast gəlinən hallar istisna kimi qəbul olunur. Belə ki, belə hallar dünya üzrə reallaşan birbaşa xarici investisiyaların ümumi həcminin cəmi 5%-ni təşkil edir [2, 12].

Birbaşa xarici investisiyalar, ümumiyyətlə hansı formada həyata keçirilməyindən asılı olmayaraq əsasən iki yolla reallaşdırılır. Birinci resipient ölkədə yeni şirkətin formalaşdırılması yolu ilə, ikincisi isə artıq mövcud şirkətlərin alınması və ya birləşdirilməsi yolu ilə.

Birbaşa xarici investisiyalara məxsus xarakterik xüsusiyyətləri aşağıdakı kimi qeyd etmək olar:

1) Birbaşa xarici investisiyaların həyata keçirilməsi ilə investor mövcud bazara tezliklə çıxmaq imkanını praktiki olara itirir.
2) Portfel investisiyalarından fərqli olaraq investisiyaların böyük həcmi və risk dərəcəsinin böyüklüyü.
3) İnvestisiya qəbul edən ölkələrə əlverişli olan investisiya müddətinin böyük olması.

Son on beş il ərzində inkişaf edən ölkələrin iqtisadiyyatına cəlb edilmiş investisiyaların tərkibində birbaşa xarici investisiyaların xüsusi çəkisi artmaqdadır. Bu illər ərzində dünya ölkələri xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsi, investisiya mühitinin yaxşılaşdırması məqsədilə bir çox islahatlar yerinə yetirdilər. Bunun nəticəsi kimi ötən illər ərzində birbaşa xarici investisiyaların həcmi dəfələrlə artdı. 2006-cı ildə dünya üzrə birbaşa xarici investisiyaların həcmi 1.3 trilyon dollara çatdı. Birbaşa xarici investisiyaların 2006-cı ildəki həcmi 2005-ci illdəkindən 38% artıq idi. İnkişaf etmiş ölkələrin iqtisadiyyatına cəlb edilmiş birbaşa xarici investisiyaların həcmi 45%, inkişaf etməkdə olan ölkələrdə 21% və iqtisadiyyatları keçid dövründə olan ölkələrdə isə 68% artmışdır [8, 3-4]. Buna rəğmən birbaşa xarici investisiyaların cəlb edilməsində iri və güclü iqtisadiyyatı olan ölkələr liderlik edir. Bu dedikləri-

miz dünya üzrə mövcud statistik göstəricilərdə öz əksini tapır. Belə ki, birbaşa xarici investisiyaların cəlb edilməsində ilk yerləri ABŞ və Böyük Britaniya tutur.

Xarici investisiyaları cəlb edən ölkələrdə iqtisadiyyatın statik inkişafı zaman keçdikcə dinamik inkişafla əvəz olunur. Bunun üçün həmin ölkələr hökmən öz qanunvericiliklərində xarici investisiyalar üçün elə mühit yaratmalıdırlar ki, cəlb olunmuş birbaşa xarici investisiyalar ölkə iqtisadiyyatının dinamik inkişafının təmin edən xarakterdə olsunlar. Bu zaman yalnız qanunvericilikdə yox, həm də xarici investisiya siyasətinin tənzimlənməsində köklü dəyişikliklər olmalıdır. Bu isə kompleks məsələdir və bir ilin işi deyildir. Bu prosesi həyata keçirmək üçün dövlət hökmən xarici və daxili ticarət və rəqabət siyasətinə, xarici şirkətlərin ölkədə törəmə və filiallarının açılması ilə əlaqədar hüqiqi rejimə, transmilli kompaniyalarla əlaqəli siyasətə və digər bu qəbildən olan məsələlərə yenidən baxmalıdır.

Ümumiyyətlə, birbaşa xarici investiyaları ölkəsindən çıxarılmasını təmin edən dövlətlər yəni donor ölkələr bunu xarici ölkədə öz ölkəsinə nisbətən daha çox gəlir əldə etmək məqsədilə edirlər.

Birbaşa xarici investisiyaları qəbul edən ölkələr yəni resipient ölkələr bunu aşağıda qeyd olunan səbəblərə görə edirlər :

- birbaşa xarici investisiyalar ölkə iqtisadiyyatına əlavə kapital axınını təmin edir, iqtisadiyyatın proporsiyalarının müsbət istiqamətdə dəyişməsinə təsir edir, sahibkarlıq və istehsalat sahəsində inkişaf templərini sürətləndirir.
- birbaşa xarici investisiyalar ölkəyə portfel, borc kapitalı kimi digər kapital axınlarının cəlb edilməsini stimullaşdırır.
- birbaşa xarici investisiyalar hesabına formalaşmış şirkətlər xarici ticarət axınlarının həcminin artmasını təmin edirlər.
- birbaşa xarici investisiyalar texnologiyaların axınını stimullaşdırır.

Birbaşa xarici investisiyalar həm donor ölkə üçün həm də resipient ölkə üçün eyni zamanda əlverişli ola bilir. Keçid iqtisadiyyatlı ölkələrdə iqtisadi islahatların müsbət nəticələrindən biri kimi külli miqdarda birbaşa xarici investisiyaların cəlb edilməsi hesab edilir. Keçid iqtisadiyyatlı ölkələrdə əlverişli investisiya mühitnin yaradılması təkcə makroiqtisadi sabitliyə deyil, həm də institusional islahatların həyata keçirilməsinə imkanlar yaradır. Bu islahatlara özəlləşdirmə, struktur dəyişikliyi, hüquqi və vergi sisteminin islahatları aiddirlər.

Bunlarla yanaşı, birbaşa xarici investisiyaların cəlb edilməsi ölkəyə yeni idarəçilik və təşkilatçılıq sistemlərinin gətirilməsinə səbəb olur. Birbaşa xarici investisiyaların həm də multiplikativ effekti vardır. Belə ki, əgər bir sahəyə birbaşa xarici investisiya cəlb edilmişdirsə, onda müəyyən vaxtdan sonra həmin sahəyə yardımçı, ona xammal və avadanlıq verən sahələrə investisiya axını baş verir.

Azərbaycan iqtisadiyyatına cəlb edilmiş birbaşa xarici investisiyaların həcmi ildən-ilə artır. 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" sazişi Azərbaycan iqtisadiyyatına birbaşa xarici investisiyaların axınına səbəb oldu.

Bunun məntiqi davamı olaraq yuxarıda qeyd olunan multiplikator effektinə uyğun olaraq cəlb edilmiş xarici investisiyaların həcmi yüksələn xətlə artdı. Dediklərimizə misal olaraq aşağıdakı statistik göstəriciləri göstərə bilərik:

Cədvəl 1

**Xarici investisiyalar (mlyn. ABŞ dolları)** [10]

| | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 |
|---|---|---|---|---|---|---|
| **Cəmi xarici investisiya** | **4 893.2** | **5 052.8** | **6 674.3** | **6 847.4** | **5 468.6** | **8 247.8** |
| o cümlədən: | | | | | | |
| Maliyyə kreditləri | 698.4 | 983.5 | 1 576.6 | 2 357.9 | 1 438.3 | 3 405.9 |
| Neft sənayesinə | 3 799.9 | 3 422.3 | 4 003.3 | 3 350.7 | 2 412.7 | 2 955.3 |
| Birgə və xarici investisiyalı müəssisələr | 230.5 | 368.4 | 439.1 | 494.1 | 624.4 | 659.6 |
| Neft bonusu | 1 | 17 | 68.2 | 3.5 | 1 | 2 |
| Digər investisiyalar | 163.4 | 261.6 | 587.1 | 641.2 | 992.2 | 1 225.0 |

Cədvəldən də göründüyü kimi, ildən-ilə Azərbaycan iqtisadiyyatına cəlb edilmiş xarici investisiyaların həcmi artır.

Xarici birbaşa investisiyaları həyata keçirən mühüm subyektlərdən biri transmilli korporasiyalardır. Onların son on illiklər ərzində dünya iqtisadiyyatında, dünya təsərrüfatının qloballaşmasında və həmçinin kapitalın beynəlxalq hərəkətində rolu olduqca artmışdır. Bunu isbat etmək üçün saysız-hesabsız statistik göstəriciləri misal kimi çəkə bilərik. Amma statistik göstəriciləri təhlilə keçməzdən əvvəl transmilli korporasiyaların yaranma və fəaliyyəti haqqında söz açmağa bir qədər ehtiyac vardır.

Azərbaycan Respublikasının iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsini stimullaşdıran əsas amillər haqda qısaca olaraq bunları qeyd edə bilərik: əvvəla, ölkə iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsinin başlıca səbəbi iqtisadiyyatda uzun müddət mövcud olmuş durğunluq və böhran vəziyyətindən çıxarmaq, həmçinin ölkədaxili yığımların məhdud səviyyədə olmasına rəğmən xarici investisiyaların hesabına sahibkarlığın investisiya aktivliyini artırmaqdır. Bundan əlavə ölkə iqtisadiyyatı böhran vəziyyətindən çıxdıqdan sonra belə ölkədə geniş maliyyə sistemi və ona uyğun maliyyə institutları yarandıqdan sonra belə xarici investisiyalara böyük ehtiyac duyulur. Çünki banklardan alınan vəsaitlər “bahalı vəsait” kimi qəbul olunur və sahibkarlar bank kreditlərindən çox xarici investorların partnyorluğuna üstünlük verirlər. Bununla belə bir çox sahələrdə vəsaitin dövr müddəti uzun olduğundan banklar həmin sahələrə vəsait ayırmaqdan boyun qaçırırlar, lakin xarici investorlar üçün bu sahələr cəlb edici ola bilir.

Dünya kapital bazarında investisiyalara olan tələb təklifi üstələdiyindən xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsi ölkləri bu sferada fəaliyyətlərini bir daha artırmağa sövq edir.

Nəhayət, inkişaf yoluna qədəm qoymuş iqtisadiyyata xarici investisiyalar hava kimi, su kimi lazımdır. Məhz cəlb edilmiş xarici investisiyaların hesa-

bına fəaliyyət göstərən müəssisələrdə əsas kapitalın yeniləşdirilməsi və istehsalatın genişləndirilməsində iri həcmlərdə cəlb edilmiş xarici investisiyalar müstəsna rol oynayırlar.

Xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsində mühüm təsir edici qüvvəyə yerli qanunvericilik bazasıdır ki, həmin qanunvericilik bazası xarici investorların fəaliyyət çərçivəsini müəyyən edir. Bu baxımdan "İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının qanununun dördüncü maddəsi xüsusi qeyd olunmalıdır:

Azərbaycan Respublikasının və xarici olkələrin vətəndaşları və huquqi şəxsləri, vətəndaşlığı olmayan şəxslər, habelə dövlətlər investisiya fəaliyyətinin subyektləri (investorları və iştirakçıları) ola bilərlər [11].

Müasir iqtisadi inkişafın əsas xüsusiyyətlərdən biri kapitalın ölkələr arasında hərəkətinin həcminin artmasıdır. Qloballaşma və regional inteqrasiya kapitalın mobilliyinin kəskin artmasına səbəb olur. Əsrlərin astanasında iri beynəlxalq kapital qovuşmaları ilə xarakterizə olundu. İnkişaf etməkdə olan ölkələrin sırasına yenilərinin qatılması yeni inkişaf etməkdə olan bazarların meydana gəlməsinə səbəb oldu və bununla da kapitalın mobilliyi artdı.

Dünya iqtisadiyyatının genişlənməsi ilə əlaqədar olaraq inkişafa zəmin yaradan resurslardan istifadə imkanlarıda artır. Lakin, əvvəlki kimi bu kapital, məhdud sayda resurslarının sahibləri - inkişaf etmiş ölkələrin "əlində" cəmləşmişdir.

Dünya üzrə yığımların məhdudluğu investisiyalara olan tələbatı artırır. Bununla da nəinki, İEÖ (inkişaf etmiş ölkə) – də həm də İEOÖ (inkişaf etməkdə olan ölkə) – də kapitalın dövr etməsinə tələbat yaradır. İnkişaf etmiş dünya ölkələri həm daxili həm də xarici investisiyaların hüquqi şəraitinin təsbiti məsələsində xeyli irəliləyişə nail olublar. Bu sahədə mühüm faktorların müəyyən edilməsinə rəğmən daxili və xarici investisiyaların arasında onların hüquqi şəraitlərdəki bəzi fərqliliyə əsaslanan rəqabət mövcuddur. Bu tendensiya güclü siyasi və iqtisadi risklərə sahib olan İEOÖ yaratmalı olduqları mühitə və onun formalaşması prosesinə güclü təsir edir.

XX əsrin sonunda başlayaraq İEÖ – in iqtisadiyyatına yönələn birbaşa investisiyaların həcmi artdı. Yəqin ki, bu tendensiya müvəqqəti xarakter daşıyır. Lakin İEÖ – in investisiya ixracının başlanmasını proqnozlaşdırmaq hələ ki, qeyri-mümkündür. Bununla belə, investisiya axınlarının istiqamətləri qabaqcadan müəyyən qədər özünü büruzə verir. Çünki birbaşa xarici investisiyalar şəksiz ki, yatırımlar üçün daha yaxşı investisiya mühiti formalaşdırmış və hökumət, ictimaiyyət, biznes tərəfindən xarici investisiyalara qarşı dəqiq mövqe seçilmiş ölkələrə doğru axacaqdır.

İnvestisiyaların cəlb edilməsinin metodlarının fərqliliyinə baxmayaraq, öz iqtisadiyyatına külli miqdarda investisiya cəlb edən ölkələrin ümumi cəhətləri mövcuddur: yatırımların etibarlı qorunması; investorlarla uzun müddətli etibarlı əlaqələr; investisiyaların kritik həcmi və perspektiv inersiyalı artımı. Keçid dövründə olan ölkələrdə xarici kapitalın ölkəyə cəlb edilməsi problemi-

nin həlli onların inkişaf məqsədlərinin və vəzifələrinin uzlaşdırılmasından asılıdır. Keçid iqtisadiyyatlı ölkələr birbaşa xarici investisiyaların ölkəyə cəlb olunması uğrunda rəqabət aparırlar. Onlar yaxşı anlayırlar ki, xarici investisiyalar iqtisadiyyatın modernləşməsi və maliyyə problemlərinin həllində əvəzsizdirlər. Bir çox ölkələr üçün xarici investisiyalar həm də bazar institutlarının formalaşmasında vasitə rolunu oynayırlar.

Ölkədə xarici investisiyaların həcmi elə səviyyədə olmalıdır ki, investisiyanı qəbul edən ölkənin iqtisadiyyatının effektivliyi təmin olunsun. Beynəlxalq investisiya rəqabəti mübarizəsində investorlara daha liberal investisiya rejimi təklif edən ölkə qalib olur. Onu da qeyd edək ki, investisiya stimulları və onların investisiya cəlb etməsindəki rolu nisbidir. Tədqiqatlar göstərir ki, investisiya stimulları ölkənin İEÖ ya da İEOÖ olmasından asılı olmayaraq əksər hallarda investisiya cəlb edilməsi prosesinə təsir etmirlər.

## ƏDƏBİYYAT


1. Azərbaycanın Statistik göstəriciləri - 2007. ARDSK, Bakı: “Səda”, 2007, 728 s.
2. Борисов Д.Б. Прямые иностранные инвестиции в экономику развивающихся стран Азии и Африки. М.: Гуманитарий, 2005. 164 s.
3. Зубченко Л.А. Иностранные инвестиции. М.: Экономисть, 2006, 160 s.
4. Игонина Л.Л. Инвестиции. М.: Экономистъ, 2005, 478 s.
5. Инвестиции / Под ред Чиненова М.В. М.: «КНОРУС», 2007, 248 s.
6. Инвестиции / Под. ред. В.В. Ковалева, В.В. Иванова, В.А. Лялина. М.: ТК Велби, 2003, 440 s.
7. Нешитой А.С. Инвестиции. М.: Дашков и К, 2007, 5-е изд, 372 s.
8. World Investment Report - 2007. Geneva: «United Nations Publication», 2007, 294 s.
9. Report of the Committee on Trade-realted investment measures. 2003, WTO. www.wto.org/english/tratop_e/invest_e.htm
10. www.azstat.org/publications/azfigures/2011/az/020.shtml
11. www.ier.az/upload/file/qanunvericilik/qanunlar/Inv.pdf


## СУЩНОСТЬ ПРЯМЫХ ИНОСТРАННЫХ ИНВЕСТИЦИЙ И ПРИВЛЕЧЕНИЕ ИХ В ЭКОНОМИКУ АЗЕРБАЙДЖАНА


**Л.В.АБЫШЛЫ**


### РЕЗЮМЕ


В данной статье проанализировано сущность прямых иностранных инвестиций и дано определение к ним. В том числе определена роль прямых иностранных инвестиций в экономике Азербайджанской Республики. Помимо этого в статье отмечены основные пути и мотивации в привлечении прямых иностранных инвестиций в экономику слаборазвитых стран.



**Ключевые слова:** прямые иностранные инвестиции, экономический рост, динамичное развитие, экономика Азербайджана, приток капитала

# ESSENCE OF DIRECT FOREIGN INVESTMENTS AND THEIR INVOLVEMENT INTO THE ECONOMY OF AZERBAIJAN

**L.V.ABISHLI**

**SUMMARY**

The article analyzes the essence of direct foreign investments and comparison of their definitions by different international organizations. The role of direct foreign investments in the economy of the Azerbaijan Republic is also studied. Furthermore, the article shows the basic ways and motivations of involvement of direct foreign investments into the economy of poorly developed countries.

**Key words:** foreign direct investment, economic growth, dynamic development, Azerbaijan economy, capital flows